AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

“HUMANİTAR FƏNLƏR” KAFEDRASI
BAKALAVR HAZIRLIĞI ÜÇÜN

# “FƏLSƏFƏ”
# FƏNNİ ÜZRƏ

# TƏDRİS PROQRAMI

BAKI – 2012

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI

"HUMANİTAR FƏNLƏR" KAFEDRASI
BAKALAVR HAZIRLIĞI ÜÇÜN

# "FƏLSƏFƏ"
FƏNNİ ÜZRƏ

# PROQRAM

050614 – Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
050640 –Yanğın təhlükəsizliyi mühəndisliyi və digər ixtisasların geniş spektri üçün işlənmişdir

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-metodiki Şurasının "Sosial-siyasi elmlər" bölməsinin "17" fevral 2012-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir

DOI: https://doi.org/10.36719/2012/18

BAKI – 2012

Proqramın tərtibçisi: fəlsəfə üzrə fəlsəfə doktoru Ə.A.Orucov

Elmi redaktor: fəlsəfə elmləri doktoru, professor Z.C.Hacıyev (BDU)

Rəyçilər: fəlsəfə elmləri doktoru S.Y.Hüseynov (AMEA)
fəlsəfə üzrə fəlsəfə doktoru R.H. Mustafayev (AMEA)
fəlsəfə üzrə fəlsəfə doktoru H.M.Hüseynov (AMEA)

# İZAHAT VƏRƏQİ

Hazırkı dövrdə respublikamızın ictimai-mədəni həyatında baş verən köklü dəyişikliklər başqa sahələrdə olduğu kimi təhsil sahəsində də islahatların aparılmasını labüdləşdirir. Tarixin mənəvi mədəniyyət irsini və bu irsi yaratmış görkəmli mütəfəkkirlərin, filosofların yaradıcılığını sonrakı nəsillərə qoyduqları mənəvi sərvətlər sistemini dərk etməyən, mənimsəməyən xalq gələcək perspektivini düzgün müəyyənləşdirə bilməz. XXI əsrin əvvəllərində xalqımızın mənəvi tamlığını mənzərəsini yaratmaq baxımından görkəmli filosoflarımızın dünya fəlsəfi fikir tarixində yerlərinin, onların hansı mənəvi zəmin üzərində yüksəldiklərinin, nəhayət, Azərbaycan ictimai-fəlsəfi fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Proqramın tərtib edilməsində başlıca məqsəd keçmiş Sovet dövründə fəlsəfənin tədqiqi və tədrisi sahəsində buraxılmış ciddi nöqsanların, təhriflərin aradan qaldırılmasının zəruriliyindən ibarətdir. Məhz, həmin dövrdə fəlsəfənin öyrənilməsinə sinfilik, partiyalılıq baxımından yanaşılmış, idealizm mövqelərindən çıxış edən filosoflar kəskin tənqid atəşinə tutulmuş, materialistlər isə tərif edilmişdir. Bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və ideoloji doqmatizm, bütün elm sahələri kimi fəlsəfənin də başı üstündə “Demokl qılıncı” kimi asılmışdı. O zamankı uzağı görməyən rəhbərlərin “fəlsəfənin gərəksizliyi” ideyası ilə çıxış

etməsi, Azərbaycanın ali məktəblərində fəlsəfə fakültəsinin bağlanması ilə nəticələnmişdir. Qeyd edək ki, dünyanın bütün ölkələrinin ali məktəblərində fəlsəfə əsas fənn kimi tədris olunur. Fəlsəfə konkret olaraq hər hansı bir ölkənin (məsələn, yunan, italyan, ərəb, alman, ingilis, çin və s.) milli sərvəti, mənəvi gücü, intellektual inkişaf göstəricisidir. XXI əsrin əvvəllərində Azərbaycanda fəlsəfi biliklər informasiya mübarizəsinin metodik, metodoloji və ideoloji prinsiplərinin formalaşdırmasının nəzəri əsasını təşkil edir. Nəhayət, fəlsəfə Azərbaycan xalqının tarixi özünüdərki zəminində formalaşmaqda olan milli şüurunun daha da zənginləşməsi və inkişafının sosial yaddaşı rolunda çıxış edir.

Bütün bunlar fəlsəfənin fundamental elm olaraq aktuallığına və ali məktəblərdə onun tədrisinin vacib olduğuna dəlalət edir.

**I mövzu:** Fəlsəfənin predmeti,onun elmlər sistemində yeri və sosial gerçəkliklə əlaqəsi

Fəlsəfənin predmetinə dair müasir baxışlar. Fəlsəfi biliyin özünəməxsusluğu, elm ilə oxşar və fərqli cəhətləri, digər elmlərlə inteqrativ problemləri. Fəlsəfə elm və “hikmətsevərlik” kimi, fəlsəfə “elmlər elmi kimi”. Fəlsəfə dünyagörüş forması kimi. Dünyagörüşün strukturu, səviyyələri. Mifologiya, din, fəlsəfədən əvvəl dünyagörüş forması kimi, onların tarixi formaları arasında qarşılıqlı əlaqə. Fəlsəfənin funksiyaları və kateqoriyaları. Varlıq və idrak cərəyanları. Fəlsəfi biliklərin strukturu. Ontologiya, metodologiya, sosial fəlsəfə, etika, estetika, aksiologiya, fəlsəfi antropologiya. Fəlsəfi biliyin yeni sahələri. Fəlsəfənin sosial gerçəkliklə əlaqəsi və onun cəmiyyətdə yeri və rolu. Müasir dövrdə fəlsəfənin aktuallığı və əhəmiyyəti. Fəlsəfi təfəkkürün qloballığı və qloballaşma prosesləri.

**II mövzu:** Qədim dünyada fəlsəfə: qədim Şərq və antik yunan fəlsəfəsi

Fəlsəfənin yaranması. Qədim Misir və Babilistanda fəlsəfi ideyalar. Qədim Hindistanda fəlsəfi məktəblərin əsas cəhətləri, dini-mistik təlimlər, ortodoksal-Vedaları qəbul edən təlimlər: Vedanta, Mimansa, Sankhya, Yoqa, Nyaya, Vayşeşika. Qeyri

ortodoksal fəlsəfi məktəblər: Caynizm, Buddizm, Lokayata-Çarvaka.

Qədim Çində fəlsəfənin təşəkkülü ilk mənbələr və beş əsas kitab- "Nəğmələr", "Tarix", "Adətlər", "Təbəddülatlar", "Yaz və payız". Konfutsiçilik və Daosizm cərəyanlarının Çində fəlsəfi ənənələrə təsiri. Antik yunan fəlsəfəsinin formalaşdığı sosio-mədəni situasiya və onun inkişaf mərhələləri. Sokrataqədərki mərhələ (e.ə.VII-V əsrlər). Milet fəlsəfi məktəbi və nümayəndələri Fales, Zenon, Ksenofon, Anaksimen, Anaksaqor və Anaksimandır. Heraklit dialektikanın banisi kimi. Yunan fəlsəfəsində klassik mərhələ (e.ə. V-IV əsrlər). Antik dövrün materializmi- Levkipp, Demokrit, Epikür. Sofistlər və Sokrat fəlsəfəsi. Platon və Aristotelin fəlsəfəsi. Platonun ideyalar aləmi və sosial təlimi. Aristotel və peripatetizm.

Ellinizm mərhələsi (e.ə. IV- II əsrlər). Stoiklər və Epikür fəlsəfəsi. Skeptisizm və Eklektizm. Neoplatonizmin Roma mərhələsi (e.ə. I əsrdən eramızın V-VI əsrlərinə qədər). Lukretsi Kar.

**III mövzu:** Orta əsrlər Qərb və müsəlman Şərqində fəlsəfə.

Orta əsrlər Qərb fəlsəfəsinin xüsusiyyətləri: xristianlıq fəlsəfəsi, patristika, sxolastika, apologetika və ehkamçılıq. Patristika və Müqəddəs Avqustin. Kreasionizmin mahiyyəti. Erkən sxolastika (VII-XII əsrlər ) və Pyer Abelyar. Sxolastikanın inkişaf dövrü (XIII əsr ) və Foma Akvinalı. Tomizmin mahiyyəti. Sxolastikanın son dövrü (XIV – XV əsrlər ) D.Skott və V.Okkam. Realizm və Nominalizm. İntibah fəlsəfəsinin özünəməxsusluğu, yeni-platonçuluq və aristotelçilik. Antroposentrizm və Humanizm ideyaları. Panteizm və naturfəlsəfə. Leonardo Da Vinçi, N.Kopernik, Q.Qaliley, N.Kuzanski, C.Bruno. Varlığın determinist izahı və sxolastika əleyhinə təlimlərin yaranması. İntibah fəlsəfəsində islahatçılıq hərəkatı və sosial utopiyalar. N.Makiavelli, T.Kampanella, T.Mor. Utopik ictimai nəzəriyyələr. Dövlət hakimiyyətinin kilsə nüfuzundan azad olması, milli dövlətlərin yaranması intibah dövrünün nailiyyəti kimi.

Orta əsrlər müsəlman Şərqində fəlsəfi fikrin ideya mənbələri və inkişaf xüsusiyyətləri. Platon və Aristotelin fəlsəfi irsinin davamı. Peripatetizm təlimi. Əl-Kindi, Əl-Fərabi, Əl-Biruni, İbn Sina, İbn Rüşd, İbn Xaldun. İslam sxolastikası. Sünnə və fiqh. Kəlam fəlsəfəsi, mütəkkəllimlər. Sünnə hüquq məktəbləri- Hənəfilik, Malikilik, Şafilik, Hənbəlilik, Cəfərililik. Sifatilərin, Cəbərilərin və Qədərilərin islam sxolastikasının inkişafında rolu. Mötəzilik, Əşərilik, Əl-Tövhid və Əl-Ədl

prinsipi. Sufizmin mahiyyəti. Vəhdət-əl-vücud və vəhdət-əl-şühud ideyası. Əl-Qəzali. Müsəlman təriqətlərinin orta əsr Şərq mədəniyyətinə təsiri: sünnilik və şiəlik.

Orta əsrlər Şərq fəlsəfəsinin və mədəniyyətinin inkişafında Azərbaycan filosoflarının yeri və rolu.

**IVmövzu:** Qədim və orta əsrlər Azərbaycan fəlsəfəsi. Azərbaycanda fəlsəfi fikrin inkişafı

Qədim dövr Azərbaycan fəlsəfəsi, Avesta və onun sonrakı fəlsəfi fikrə təsiri. Zərdüştiliyin mənəvi-əxlaq idealı: “Xeyir fikir”, “Xeyir söz”, “Xeyir əməl”. Zərvanizm, Maniçilik, Məzdəizm, Xürrəmilik və Alban xristianlığı.

Orta əsr Azərbaycan mədəniyyətinə islam təriqətlərinin təsiri: sünnilik və şiəlik. Mötəzilik, Kəlam, Sufizm, Hürufilik. Panteizm ideyaları. Orta əsrlərdə Azərbaycan fəlsəfəsinin xüsusiyyətləri və inkişaf istiqamətləri. Ə.Bəhmənyar, Şihabəddin Əbuhəfs Ömər Sührəvərdi, S.Urməvi, Ş.Y.Sührəvərdi, N.Gəncəvinin fəlsəfəsində peripatetizm ənənələri. Şihabəddin Yəhya Sührəvərdi və İşraqilik fəlsəfəsi. Orta əsr Şərq və Qərb fəlsəfi fikrinin inkişafında Azərbaycan filosoflarının xidmətləri. N.Tusi, F.Nəyimi, İ.Nəsimi və M.Füzulinin fəlsəfəsi.

XIX-XX əsrlərdə Azərbaycanda ictimai-fəlsəfi fikir. A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, M.Kazımbəy,

H.B.Zərdabi, Ö.F.Nemanzadə, M.Ə.Sabir, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli,Ə.Cavad, A.Səhhət,Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Hadi, M.B.Məmmədzadə, Ə.Topçubaşov, N.Nərimanov və s.

**V mövzu:** Yeni dövr fəlsəfəsi

Yeni dövr fəlsəfəsində ideya istiqamətləri və başlıca məsələlər. Varlığa münasibətdə deizm və dualizmin üstünlüyü. Empirizm, sensualizm və rasionalizm cərəyanları. F.Bekonun fəlsəfəsi. R.Dekart dualist fəlsəfənin banisi kimi. Q.Leybnits-Monadologiya. B.Spinoza, C.Lokk və T.Hobbsun fəlsəfi görüşləri. XVIII əsr fransız maarifçiliyinin özünəməxsusluğu. Volter, J.J.Russo. Fransız mexaniki materializmi Lametri, Helvesti, Holbax, D.Didro və Dalamber.

Azərbaycanda maarifçilik fəlsəfəsi və nümayəndələri. A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, N.B.Vəzirov, Ö.F.Nemanzadə, M.A.Şahtaxtlı və s.

Klassik alman fəlsəfəsi. Q.Herder və İ.Kant. Kantın əxlaq fəlsəfəsi. Hegal dialektikasının idealist məzmunu. Hegelin mütləq idealizmi. Fixte və Şellinqin transsendental fəlsəfi təlimləri. Feyerbaxın antropoloji materializmi. Marksist fəlsəfi konsepsiya-nın ideya mənbələri, təşəkkülü və mahiyyəti.

**VI mövzu:** XX əsr fəlsəfəsi

XX əsr qərb fəlsəfəsinin xüsusiyyətləri, məktəb, cərəyan və konsepsiyalar. İrrosionalizm və mistikaya meyil. F.Nitsşenin radikal nihilizmi. Neokantçılıq ideyalarını əsaslandıran Marburq (Q.Kohen, E.Kassier) və Freyburq (V.Vindelband, Q.Rikkert) məktəbləri.

XX əsrin 60-cı illərində yaranmış yeni hegelçiliyin mahiyyəti.

Həyat fəlsəfəsi. A.Berqson, A.Şopenhauer, Şpenqlər, Zimmel, Freyd və Yunq. Freydizm və neofreydizm. Neotomizmin inkişaf mərhələləri. Eksiztensializm fəlsəfəsi. M.Haydeger, A.Kamyu, K.Yaspers, Q.Marsel və J.P.Sartr. Eksiztensializm zaman anlayışı. Personalizm. Pozitivizm və neopozitivizm məktəbləri. Vitgenşteyn və K.R.Popper. Praqmatizm fəlsəfəsi və nümayəndələri. Frankfurt məktəbi və nümayəndələri M.Harkaymer, T.Adorno, H.Markuze. İndustrializmin və rasionalizmin tənqidi. K.Marksın fəlsəfi ideyaları.

XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və fəlsəfi fikrin özünəməxsusluğu və inkişaf istiqamətləri.

**VII mövzu:** Fəlsəfədə varlıq və materiya anlayışının mahiyyəti

Varlıq və materiya probleminin mahiyyəti və araşdırılması. Varlığın əsas səciyyəsi, forma və növləri. Təbiətin determinist konsepsiyasının təşəkkülü. Materiya obyektiv reallıq kimi.

Materiyanın xassələri,formaları və səviyyələrinin müasir elmi şərhi. Materiyanın səviyyələri: abiogen, biogen və sosiogen. Hərəkət, məkan və zaman haqqında konsepsiyalar. Eynşteynin nisbilik nəzəriyyəsi.

**VIII mövzu:** Fəlsəfədə insan problemi

İnsanın mövcudluğu və mənşəyinə dair fəlsəfi fikirlər. Şüurun sosial təbiəti. Beyin və şüur. Ağıl, dərrakə, zəka, intellekt, müdriklik. Şüur inikasdır. Şüur, can və ruh. Şüur və dil. Özünüdərk. Milli şüur. Milli-mənəvi dəyərlər. Dilin sosial funksiyaları. Təbii və süni dillər. Qeyri-şüurun mahiyyəti.

**IX mövzu:** İnkişaf haqqında konsepsiya. Dialektika

Dialektikanın mahiyyəti. Dialektik əlaqələrin formaları: məkan-zaman, səbəb-nəticə, mühit-qeyri mühit, təsadüf-zəruri, sabit-dəyişkən və s.

Antik dövrün kortəbii dialektikası, klassik alman fəlsəfəsinin idealist və materialist dialektikası, dialektikanın tarixi mərhələləri. Obyettiv və subyektiv dialektika. Dialektikanın əsas qanunları. Kəmiyyət və keyfiyyət dəyişmələrinin dialektikası. Əksliklərin vəhdəti və mübarizəsi qanunu. İnkarı inkar qanunu. Kateqoriya anlayışı. Tək, xüsusi və ümumi, məzmun və forma, mahiyyət və təzahür kateqoriyaları. Varlığın quruluşunu ifadə edən kateqoriyalar. Struktur, element, tam, hissə. Determinasiya

əlaqələrini ifadə edən kateqoriyalar: Zərurət, təsadüf, məkan-gerçəklik, səbəb-nəticə.

**X mövzu:** Sosial fəlsəfə. Sosial idrakın özünəməxsusluğu

Sosial fəlsəfə, onun predmeti və funksiyaları. Cəmiyyət haqqında nəzəriyyə və konsepsiyalar. Sosial idrakın obyekti və subyekti. Sosial sistem anlayışı. Açıq və qapalı sistemlər. Cəmiyyətin sosial təbəqələri, əhalinin sosial-etnik birlik formaları və sosial struktur anlayışları. Sosial qruplar və siniflər arasında münasibət. Millət, xalq və etnik qruplar arasında münasibət.

**XI mövzu:** Cəmiyyətin siyasi həyatı

Cəmiyyətin siyasi həyatını şərtləndirən amillər. Hakimiyyət, siyasət, siyasi hakimiyyət. Hakimiyyətin formaları. Müasir dövrdə hakimiyyətin əsas növləri və tipləri. Hakimiyyətin legitimliyi problemi. Dövlət hakimiyyət formaları- demokratik, monarxiya, totalitar, avtoritar, teokratik. Vətəndaş cəmiyyəti və hüquqi dövlət anlayışı. Dövlətin quruluşu məsələsi, unitar və federativ dövlət quruluşu. Demokratiyanın mahiyyəti və inkişaf mərhələləri. Vətəndaş cəmiyyəti və bürokratiya. Hakimiyyət, zorakılıq və məsuliyyət. İdeologiya və siyasətin qarşılıqlı əlaqəsi. Siyasi ideologiyaların mənbəyi, səviyyələri, nəzəri-konseptual,

proqram-siyasi, kütləvi yayılma. İdeologiyanın sosial xarakterli mütərəqqi, mühafizəkar, mürtəce formaları: sosial bazalarına görə sinfi, irqi, milli formaları: daxili strukturuna görə- dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar və s.

Müasir dövrdə başlıca ideoloji nəzəriyyə və cərəyanlar. İctimai rəy anlayışı. İctimai rəyin formalaşdırılmasının yolları, növləri və səviyyələri. Siyasi mədəniyyət anlayışı. Dünyəvilik və milli dəyərlər. Azərbaycan ictimai-siyasi gerçəkliyinə fəlsəfi baxış.

**XII mövzu:** Tarixi prosesə fəlsəfi yanaşma. Tarixin fəlsəfəsi

Tarixi prosesin mahiyyətinə aid baxışlar. Sivilizasiya anlayışı və onun fərqli təsvirləri. “Lokal sivilizasiyalar” konsepsiyası. Sosial dinamika təlimi. İctimai tərəqqinin yeni anlaşılması problemi. Tərəqqi inkişafın yüksələn xətt üzrə istiqamətinin göstəricisidir. İnkişaf ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru yönələn və konkret obyektin yeni keyfiyyət halına keçməsini şərtləndirən hərəkət, dəyişmədir. Tənəzzül tərəqqinin əks istiqamətini təşkil edir. Elmi texniki inqilab və onun mahiyyəti. Kütlə və xalq anlayışının fərqləndirici xüsusiyyətləri. Tarixdə liderin, şəxsiyyətin roluna dair baxışlar. XXI əsr Azərbaycan cəmiyyəti. Keçid dövrü anlayışı.

Heydər Əliyev tarixi şəxsiyyətdir.

**XIII mövzu:** Cəmiyyətin mənəvi həyatı və ictimai şüuru

Cəmiyyətin mənəvi həyatı və onun elementləri: mənəvi istehsal, mənəvi fəaliyyət, mənəvi tələbatlar, mənəvi ünsiyyət, mənəvi istehlak və mənəvi münasibətlər. Mənəviyyat anlayışı. İctimai varlıq və ictimai şüurun qarşılıqlı münasibəti. İctimai-fərdi və kütləvi şüur anlayışları. İctimai-kütləvi şüurun strukturu: adi və nəzəri şüur. Sosial psixologiya və ictimai ideologiya. Siyasi şüurun səciyyəsi. Hüquqi şüurun strukturu, nəzəri və praktiki səviyyələri. Əxlaqın cəmiyyətdə rolu və tutduğu mövqe. Əxlaq ictimai şüurun əsas qiymətverici formasıdır. Əxlaqi şüurun strukturu, kateqoriyaları. Əxlaqi hiss, əxlaqi ideal. Dini şüur, strukturu və səviyyələri. Estetik şüur və incəsənət. Ekoloji şüur anlayışı.

**XIV mövzu:** Cəmiyyətin iqtisadi sferasına fəlsəfi yanaşma

İqtisadiyyat cəmiyyətin ən mürəkkəb yarımsistemi kimi. Bazis və üstqurum anlayışı. İqtisadiyyatın cəmiyyət həyatına təsiri, iqtisadiyyat və dövlət, iqtisadi sferada obyekt və subyekt münasibətləri. İstehsal, istehlak, mübadilə, bölgü və tələbatlar. Maddi və mənəvi istehsal və xidmət sferası. Mülkiyyət, onun sosial məzmunu və formaları: dövlət mülkiyyəti, xüsusi mülkiyyət, bələdiyyə mülkiyyəti, birlik və korporasiyalar mülkiyyəti. Əməkçilərin istehsal vasitələri üzərində mülkiyyəti.

Bazar iqtisadiyyatının fəlsəfi təhlili. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi inkişafın əsas göstəricilərinə fəlsəfi yanaşma.

**XV mövzu:** Mədəniyyət. Sivilizasiya və qloballaşma.

Qloballaşma və qlobal problemlər

Mədəniyyət fəlsəfəsi. Mənəvi dəyərlər və cəmiyyətdə onların rolu. Sivilizasiya və mədəniyyət. Qloballaşma və qlobal vəhdət. Qlobal problemlərin təbii və sosial tərəfləri. Qlobal sivilizasiya. Qloballaşma. Mədəni qloballaşma. Qloballaşma proseslərinin ziddiyyətliliyi. Qloballaşma və qlobal təhlükələr. Qlobal proseslər və qlobal problemlər anlayışları. Dünya inkişafının qlobal problemləri (ekoloji, iqtisadi, demoqrafiya vəs.) və onların həlli yolları. Davamlı inkişaf. Qlobal idarəetmə və qlobal əməkdaşlıq. Antiqlobalizm. Azərbaycanın qloballaşan dünyada yeri və mövqeyi.

"Fəlsəfə" kursunun tədrisinə ayrılan saatların mövzular üzrə paylanması

| № | Mövzu | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1 | Fəlsəfənin predmeti, onun elmlər sistemində yeri və sosial gerçəkliklə əlaqəsi | 2 | 2 |
| 2 | Qədim dünyada fəlsəfə: qədim Şərq və antik yunan fəlsəfəsi | 2 | 2 |
| 3 | Orta əsrlər Qərb və müsəlman Şərqində fəlsəfə | 2 | 2 |
| 4 | Qədim və orta əsrlər Azərbaycan fəlsəfəsi. Azərbaycanda fəlsəfi fikrin inkişafı | 2 | 2 |
| 5 | Yeni dövr fəlsəfəsi | 2 | 2 |
| 6 | XX əsr fəlsəfəsi | 2 | 2 |
| 7 | Fəlsəfədə varlıq və materiya anlayışının mahiyyəti | 2 | 2 |
| 8 | Fəlsəfədə insan problemi | 2 | 2 |
| 9 | İnkişaf haqqında konsepsiya. Dialektika | 2 | 2 |
| 10 | Sosial fəlsəfə. Sosial idrakın özünəməxsusluğu | 2 | 2 |
| 11 | Cəmiyyətin siyasi həyatı | 2 | 2 |
| 12 | Tarixi prosesə fəlsəfi yanaşma. Tarixin fəlsəfəsi | 2 | 2 |
| 13 | Cəmiyyətin mənəvi həyatı və ictimai şüuru | 2 | 2 |
| 14 | Cəmiyyətin iqtisadi sferasına fəlsəfi yanaşma | 2 | 2 |
| 15 | Mədəniyyət. Sivilizasiya və qlobal-laşma. Qloballaşma və qlobal problemlər | 2 | 2 |
|  | Cəmi: | 30 | 30 |

## Ədəbiyyat

1.Mehdiyev R.Ə. Fəlsəfə. Dərslik. Bakı: Şərq- Qərb, 2010.
2.Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: 2003.
3.Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Bakı: 2001.
4.Hacıyev Z. Fəlsəfə. Bakı: 2001.
5.Şükürov A.M. Fəlsəfə. Bakı: 2002.
6.Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı: 2004.
7.Şükürov A.M. Şərq fəlsəfəsi və filosofları. Bakı: 2005.
8.Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı: 2006.
9.İmanov H.R. Fəlsəfənin əsasları. Bakı: 2007.
10.Ə.Nicat. Dünya fəlsəfi irsindən yarpaqlar. Bakı: 1991.
11.Məmmədov Z.C. Azərbaycan fəlsəfi tarixi. Bakı: 1994.
12.Əhmədli C.T. Cəmiyyət, siyasət və ideologiya. Bakı: 1997.
13.Zeynalov M.B. Fəlsəfə tarixi (qərb fəlsəfəsi). Bakı: 2001.
14.Şükürov A.M. Qlobalistika və ekoloji fəlsəfə. Bakı: 2001.
15.Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: 1990.
16.Hüseynov S.Y. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı: Adiloğlu, 2003.
17.Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. Baki: 1997.
18.Кулизаде З.А. Из истории Азербайджанской философии VII- XVI в., Баку: 1992.
19.Кулизаде З.А. Хурифизм и его представители и Азербайджане. Баку: 1970.